Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

*İcmal*

# Müstəqilliyimiz dövründə ADBTİA-nın tələbələrinin asudə vaxtının təşkili yolları

*Dilqəm Quliyev*[1]
[1]*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib 1 mart 2018
Dərc olunub: 5 iyun 2018
© 2018 ADBTİA. Bütün hüquqlar qorunur.

**Açar sözlər:** təhsil, tərbiyə, tələbə, asudə vaxt, dərsdənkənar vaxt, istirahət günləri, peşə hazırlığı, fiziki kamillik, idman məşqləri, kino, teatr, muzey, klub.

Müstəqilliyimiz dövründə, dinamik ictimai inkişaf şəraitində dərs vaxtından və dərsdənkənar vaxtdan səmərəli istifadə edilməsinin əhəmiyyəti durmadan artır. Yalnız öz vaxtını düzgün bölüşdürməyi və ondan düzgün istifadə etməyi bacaran tələbə məhsuldar işləmək, daim öyrənmək, fəal ictimai iş aparmaq iqtidarında ola bilər.

Ali məktəblərdə tələbələrin mənəvi cəhətdən formalaşması prosesi təhsillə tərbiyənin qırılmaz vəhdəti demək olar ki, tələbələrin bir mütəxəssis və vətəndaş kimi sosial funksiyaları və peşə funksiyalarını yerinə yetirməyə hazırlanmasına kömək edir. (1)

2016-2017-ci tədris illərində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında tələbələrin asudə vaxtı tədqiq olunmuşdur (ADBTİA). Bunun da əsas məqsədi dərsdənkənar vaxt büdcəsinin strukturunu təyin etməyə, tələbələrin asudə vaxtının həcmini, həmin dövrdə keçirilən məşğələ növlərini, peşə hazırlığının səviyyəsini yüksəltmək, fiziki təkmilləşməyə və istirahət üçün məqsədəuyğun olub-olmadığını müəyyənləşdirməyə, tələbələrin asudə vaxtdan məqsədyönlü istifadə etməsinə Akademiyanın ictimai təşkilatlarının təsirini öyrənməyə imkan vermişdir.

Dərsdənkənar vaxt dedikdə, tələbənin məşğələlərdə keçirdiyi müddətdən başqa günün bütün vaxtı nəzərdə tutulur. Akademiyada təhsillə bu və ya başqa cür bağlı olan saatları (Akademiyaya getmək və oradan qayıtmaq, idman məşqlərinə hazırlaşmaq) habelə ev tapşırıqlarının yerinə yetirilməsinə (yuxu, şəxsi gigiyena, yemək-içmək və sair) dərsdənkənar vaxtdan çıxdıqda yerdə qalan saatlar asudə vaxtı təşkil edir. (1).

Tələbələrin asudə vaxtının tədqiqi prosesində Akademiyanın ictimai təşkilatlarının, kitabxananın, tələbə elmi cəmiyyətinin işi, auditoriyadankənar fiziki tərbiyənin və sairənin vəziyyəti öyrənilmişdir. (5).

Alınmış materialların təhlili göstərir ki, ADBTİA-nın tələbələrinin vaxt büdcəsinin strukturunda sutkalıq dərsdənkənar vaxt orta hesabla 15,6 saat təşkil edir. Bunun 4,8 saatı asudə vaxtdır. Həm də, bir qayda olaraq, ictimai tapşırıqların yerinə yetirilməsinə bir saat vaxt sərf edilir. Qeyd edək ki, tələbələrin 63,2 faizi bir ictimai tapşırıq, 16 faizi iki-üç tapşırıq, qalanları isə birdəfəlik tapşırıq yerinə yetirirlər.

Alınmış məlumatın təhlili dərsdənkənar və asudə vaxt həcminə təsir edən mühüm amilləri aşkara çıxarır. Məsələn otaq kirələyən tələbələr ev işlərinin yerinə yetirilməsinə mənzili olan və valideynləri ilə, yaxud ayrıca ailəsi ilə yaşayan şəxslərə nisbətən 39 faiz çox vaxt sərv edirlər.



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

Asudə vaxtda aparılan elmi-tədqiqat işi elmi-texniki nailiyyətləri əməli fəaliyyətdə yaradıcılıqla tətbiq etməyi bacaran mütəxəssislər hazırlanmasının və tərbiyə olunmasının keyfiyyətini yüksəltmək üçün səmərəli vasitədir. Akademiyanın 10 tələbəsindən 4 nəfəri bu işdə iştirak edir.

Tədqiqat göstərmişdir ki, sağlamlığını möhkəmləndirməyə və müəyyən fiziki kamilliyə nail olmağa çalışan tələbələrin 95 faizi idmanla müntəzəm məşğul olur və ona həftədə təqribən 6 saat vaxt sərf edir.

Asudə vaxtın nisbətən məhdud olması və bu şəraitdə bir çoxlarının başqa məşğələ növlərinə üstünlük verməsi tələbələrin auditoriadankənar idman məşğələləri ilə əhatə edilməsi səviyyəsinin yüksəldilməsinə manəçilik törədir. Tələbələrin 30 faizi bunun belə olduğunu göstərmişdir.

Aparılmış tədqiqat göstərmişdir ki, Akademiyanın tələbələrinin asudə vaxtının strukturu tərbiyə işi baxımından kifayət qədər məzmunlu və səmərəli təşkil olunmamışdır. Tədqiq edilmiş tələbələrin 30 faizi qəzet, 45 faizi bədii ədəbiyyat oxumur, 30 faizi ictimai tapşırıq yerinə yetirmir. Onların 20 faizi hər gün qəzet, 20 faizi bədii ədəbiyyat oxuyur, 40 faizi ictimai işdə fəal iştirak edir. Asudə vaxtın keçirilməsinin ən cəzbedici formaları konsertlərə getmək, dostlarla ünsiyyət etmək, kinoya baxmaqdır. Asudə vaxtın keçirilməsinin iki formasının – «sadəcə küçədə gəzişmək» və «dostlarla bir yerdə olmaq» formalarının ümumi faizi yüksəkdir – 59 faizdir. Asudə vaxtın bu formalarının konkret məzmununun nədən ibarət olduğunu söyləmək çətindir. Bunların hər ikisi əslində boş-boşuna vaxt keçirmək deməkdir, bəzən isə spirtli içki içməklə və cəmiyyətə zidd olan başqa hərəkətlərlə əlaqədardır. Həm də qeyd etmək lazımdır ki, qeyri-formal ünsiyyət təzahürləri son dərəcə çoxdur. Mədəni-məişət həyatının və həyat yolu seçməkdə sərvət istiqamətlərinin bir çox məsələlərinin həllində dostların məsləhətinə böyük əhəmiyyət verilir.(1)

Tədqiqatın vəzifələrindən biri tələbəlrin ictimai işdə iştirakının asudə vaxtdan istifadə edilməsinə təsirini aydınlaşdırmaq idi. Alınmış tədqiqatın təhlili göstərmişdir ki, gənclərin xeyli hissəsi bu təsirin mövcud olduğunu etiraf edir və onun müsbət xarakter daşıdığını qeyd edir. Bu tələbələrin fikrincə, ictimai işdə iştirak asudə vaxtdan daha səmərəli istifadə olunmasına kömək edir, onu daha da zənginləşdirir. (2)

Tədqiqat zamanı tələbələr belə bir suala çox həvəslə cavab verirdilər: «Tələbələrin asudə vaxtdan Sizcə, nə yolla daha səmərəli istifadə etmək olar?» Gənclərin çox hissəsi belə hesab edir ki, tələbələrə asudə vaxtı hədər verməyib onu planlaşdırmağı, düzgün təşkil etməyi və ondan düzgün istifadə etməyi öyrənmək lazımdır. Vətənpərvərlik mövzularda mühazirələrin, görüşlərin sayını artırmaq, teatr tamaşalarına, konsertlərə, kino filmlərə, sərgilərə daha tez-tez kollektiv baxışlar təşkil etmək, Bakının və başqa şəhərlərin tarixi abidələri ilə tanışlıq üçün turist səfərləri etmək, yaşlı nəsillərin idmançı, əmək və döyüş şöhrəti ilə bağlı görüşlər keçirmək, həmin yerlərə daha çox yürüşlər keçirmək təklifləri diqqəti cəlb edir.

Asudə vaxt büdcəsinin tədqiqi məşğələlərin üstünlüyə görə sıralandığını aşkara çıxarmağa imkan vermişdir. Adi günlərdə televiziya verilişlərinə tamaşaya daha çox asudə vaxt sərf edilir, idman məşqlərinə getmək, dostlarla görüşlər birinci yeri, gəzinti ikinci yeri, kinoteatra getmək dördüncü yeri tutur. Aşağıdakılar sonrakı yerləri tutur: qonaq



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

getmək, bədii ədəbiyyat mütaliəsi, passiv istirahət.
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 200 tələbəsi arasında keçirdiyimiz rəy sorğusunun materialları üzrə tələbələrin asudə vaxtdan istifadə etməsinin və bədən tərbiyəsi və idmanın tələbatının onların təhsilindən asılılığı haqqında aşağıdakı rəqəmləri göstərir:
Cədvəl № 1

| Təhsil | İldə neçə dəfə olmuşlar % | | | | |
|---|---|---|---|---|---|
| | kinoda | teatrda | mühazirədə | muzeydə | klubda |
| I kurs | 14,5 | 1,9 | 2,5 | 1.5 | 2 |
| II kurs | 25,2 | 3,5 | 3 | 1,7 | 3 |
| III kurs | 21,1 | 3,8 | 5,1 | 2 | 5 |
| IV kurs | 30,5 | 3,9 | 5,9 | 1,9 | 6,5 |
| Cəmi: | 91,3 | 13,1 | 16,5 | 7,1 | 16,5 |

Qrafik 1.




Aparılmış tədqiqat göstərmişdir ki, Akademiyanın I kurs tələbələrin 14,5 faizi kinoya, 1,9 faizi teatra getmiş, 2,5 faizi mühazirədə olmuşlar. Onların 1,5 faizi muzeydə, 2 faizi isə klubda olmuşlar. Akademiyanın IV kurs tələbələri I kursa nisbətən daha aktiv iştirak edirlər. Ümumi I kurs 20%, II kurs 40%, III kurs 60% və IV kurs 80% tədbirlərdə iştirak etmişlər.
İstirahət günləri asudə vaxtın mənzərəsi bir qədər dəyişir. Burada şəhər gəzintisi birinci yeri, qonaq getmək, dostlarla görüşmək ikinci yeri tutur. Sonrakı yerləri televiziya verilişlərinə tamaşa, passiv istirahət, bədii ədəbiyyat mütailəsi tutur. Aparılmış tədqiqat çox aydın göstərir ki, Akademiyanın tələbələrinin asudə vaxtının əsas məzmununu (80 faizini) idman məşqləri təşkil edir. Qalan tələbələrin asudə vaxtınıdan istifadə olunmasında kortəbilik hökm sürür, asudə vaxtın strukturu təsadüfi amillərin təsiri altında, yaxud da fərdi zövqlər və öz-özünə əmələ gələn, sosial cəhətdən tənzim oluna bilməyən qeyri-formal qrupların ənənələri nəzərə alınmaqla formalaşır.
Tədqiqatın nəticələri Akademiyanın həmkarlar komitəsində, gənclərin bircə iclasında müzakirə olunmuşdur. Beş əsas bölməni əhatə edən tövsiyyələrin həyata keçirilməsi üçün tədbirlər müəyyən edilmişdir: (4).
1) asudə vaxtı artıran ehtiyyatlardan istifadə etmək; (tələbələri yataqxana ilə təmin etmək);
2) vaxt keçirilməsinin strukturunu təkmilləşdirmək;
3) asudə vaxtdan istifadə edilməsinin məzmununa təsiri gücləndirmək.
4) hər bir tələbədə öz asudə vaxtından səmərəli istifadə etmək arzusu və bacarığı tərbiyə etmək vəzifəsi;
5) asudə vaxtından səmərəli istifadə etmək üçün lazımi şərait yaratmaq vəzifəsi



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

Akademiyanın ictimai təşkilatların diqqət mərkəzində durur.

Asudə vaxta dövlətin rəhbərliyi problemi çoxcəhətli problemdir. Dövlətin qərarına əsasən beşgünlük iş həftəsinə keçidlə əlaqədar olaraq daha kəskin şəkildə durmuşdu. Təhsil ocağımız beşgünlük dərs sisteminə keçmişdir. Məlumdur ki beşgünlük iş sisteminə keçid asudə vaxtın sadəcə olaraq genişlənməsi, təhsil sahəsində boş saatların miqdarının sadəcə olaraq artması deyil, bunların yenidən bölüşdürülməsi deməkdir.

Bu problem fərdi asudə vaxt fondunun tənzim olunmasının və ondan istifadə edilməsinin bütün istiqamətlərini əhatə edir.

Təhsil ocaqların əsas tərbiyəvi rolunu qeyd edərkən nəzərə almaq lazımdır ki, beşgünlüyə keçid bilavasitə təhsil ocağında tələbələrin tərbiyəsi üçün istifadə edilən asudə vaxtın azalmasına səbəb olmuşdur. İndi asudə vaxtın təqribən yarısı həftənin axırında uzun sürən iki günlük dövrlərdə təmərküzləşir. Deməli problem ondan ibarətdir ki, təhsil ocaqlarında təhsil alan tələbələrə göstərildən təsirin zəifləməsinə bu şəraitdə yol verilməsin.

**Ədəbiyyatlar:**

1.Patruşev V. «Altmışıncı və yetmişinci illərdə SSRİ zəhmətkeşlərin asudə vaxtının dinamikası». «Sovetskiy sport» qəzeti, 16 iyul 1981-ci il.

2.Qordon B. «Məişətin və asudə vaxtın təşkilini təkmilləşdirmək mənəvi inkişaf amilidir».

3. Qordon L. «Çertı soüialistiçeskoqo obraza jizin: bıt qorodskix raboçix vçera, seqodnə, zavtra». M., 1977, str.90-91.

4. SSRİ-də xalq maarifi, elm və mədəniyyət. Stat.məcm., M., 1977, səh.394.

5. Patruşev V. «İspolzovaniye sovokupnoqo vremeni obhestva». M., 1978, str. 183-183.



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.